# Vaşinqton paktı:

## Qafqazda tarix yenidən yazılır və Minsk qrupunun iflası rəsmiləşir




*Avqustun 8-də onilliklərdir həlli gecikən problem Ağ Evin tarixi divarları arasında qətiyyətli liderliyin və nəticəyönümlü praqmatizmin təntənəsi ilə çözüldü. Prezident Donald Trampın şəxsi iradəsi ilə ərsəyə gələn və onun "sövdələşmə sənəti"nin ali nümunəsi olan "Vaşinqton Paktı" Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyanın imzaları ilə Cənubi Qafqazda, həm də bütün Avrasiya məkanında yeni geosiyasi nizamın konturlarını cızdı. Bu hadisə ATƏT-in Minsk qrupu adlanan və otuz il boyunca münaqişənin həll olunmamasına xidmət edən təsisatın rəsmi "ölüm" şəhadətnaməsi oldu. Eyni zamanda, bu pakt, Fransanın Cənubi Qafqaz siyasətinin tamamilə iflasa uğradığının və onun beynəlxalq hüququ daxili lobbi maraqlarına qurban verən mövqeyinin artıq heç kim tərəfindən ciddiyə alınmadığının sübutuna çevrildi. Prezident Trampın sammitdə səsləndirdiyi "Biz burada sonsuz prosesləri müzakirə etmək üçün toplaşmamışıq, biz nəticə əldə etmək və tarix yazmaq üçün buradayıq" bəyanatı köhnə dünyanın səmərəsiz diplomatiya məktəbinə endirilmiş sarsıdıcı zərbə idi.*

Bu tarixi dönüşün əhəmiyyətini tam anlamaq üçün ilk növbədə, Minsk qrupunun fəaliyyətsizliyinin anatomiyasını dərindən təhlil etmək lazımdır. 1992-ci ildə yaradılan və 1997-ci ildən Rusiya, Fransa və ABŞ həmsədrliyi ilə fəaliyyət göstərən format, kağız üzərində nəcib məqsədlərə xidmət etsə də, reallıqda həmsədrlərin toqquşan maraqlarının girovuna çevrilmişdi.

Həmsədrlərdən olan Rusiya üçün Ermənistan-Azərbaycan münaqişəsi heç vaxt həll olunmalı problem deyildi, əksinə, Cənubi Qafqazda imperial təsirini saxlamaq üçün alət idi. Kreml dondurulmuş münaqişə vasitəsilə həm Ermənistanı hərbi-siyasi cəhətdən tam asılılıqda saxlayır, həm də Azərbaycanın müstəqil siyasətinə təzyiq göstərmək üçün daimi rıçaqa malik olurdu. Sülhün bərqərar olması Moskvanın regiondakı "sülhməramlı" və "vasitəçi" kimi unikal rolunu əlindən alar, Ermənistanın Qərbə inteqrasiyasına yol açar və Azərbaycanın enerji və nəqliyyat layihələrindəki müstəqilliyini daha da gücləndirərdi. Buna görə də, Rusiya diplomatiyası otuz il boyunca münaqişənin real həll yollarını daim əngəlləyirdi. Minsk Qrupu Moskvanın destruktiv siyasətini pərdələyən əlverişli beynəlxalq platforma funksiyasını yerinə yetirirdi.

Qrupun digər həmsədri Fransa isə beynəlxalq münasibətlər tarixində vasitəçilik missiyasının utancverici nümunəsini sərgilədi. Fransanın Cənubi Qafqaz siyasəti onun ölkə daxilindəki aqressiv və nüfuzlu erməni diasporu və lobbisinin tələbləri ilə diktə olunurdu. Seçkilərdə erməni icmasının səslərini qazanmaq uğrunda mübarizə aparan Fransa siyasi elitası BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən dörd qətnaməsini sistematik şəkildə görməzdən gəlirdi. Fransa Senatı və Milli Assambleyası dəfələrlə "Dağlıq Qarabağ respublikası"nın tanınmasına çağıran qətnamələr qəbul edərək təcavüzkar siyasəti açıq şəkildə dəstəkləyirdi. Prezident Emmanuel Makronun 2020-ci il Vətən müharibəsi zamanı və sonrasında səsləndirdiyi qərəzli, ittihamedici və həqiqətə uyğun olmayan bəyanatlar isə Parisin vasitəçi statusunu tamamilə dəfn etdi. Fransa Minsk Qrupu masasında Ermənistanın vəkili kimi otururdu. Bu vəziyyət, təbii olaraq, Azərbaycanın formata olan bütün inamını məhv etdi və hər hansı təklifin qəbulunu qeyri-mümkün hala gətirdi. Minsk qrupu bir ayağını Moskvanın geosiyasi oyunlarına, digərini isə Parisin lobbi maraqlarına basaraq iflic vəziyyətə düşdü.

Prezident Donald Tramp administrasiyası isə bu mürəkkəb və nəticəsiz oyunda iştirakdan imtina etdi və sınaqdan çıxmış liderlik diplomatiyası, hər iki tərəfə aydın siyasət tətbiq etmək modeli seçildi. Bu modelin təməl daşı isə ABŞ-ın "907-ci düzəliş"in aradan qaldırılması oldu. Prezident Tramp düzəlişin sadəcə müvəqqəti dayandırılmasının kifayət etmədiyini, problemin kökündən həll edilməli olduğunu bildirdi. Bu, Vaşinqtonun Azərbaycana verdiyi ən güclü siqnal idi və danışıqlar masasında Bakının mövqeyini əhəmiyyətli dərəcədə gücləndirdi.

"Vaşinqton Paktı" məzmun etibarilə inqilabi sənəddir. Sənədin əsas fəlsəfəsi qeyri-müəyyənliyə və gələcəyə yönəlik boş vədlərə son qoymaqdır. Saziş, Minsk qrupunun illərdir "kreativ" həllər axtardığı "status" məsələsini birdəfəlik arxivə göndərir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü tam tanıyır. Bu, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunun İrəvan tərəfindən rəsmən qəbul edilməsi deməkdir. Bunun müqabilində, paktda Qarabağın erməni sakinlərinin hüquqları və təhlükəsizliyi Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində təmin edilir.

"Vaşinqton Paktı" onun uzunmüddətli dayanıqlılığın əsas təminatçısıdır. Prezident Trampın komandasına görə, sülh təkcə kağız üzərində deyil, insanların gündəlik həyatında hiss edəcəkləri rifah artımı ilə möhkəmlənə bilər. Bu səbəbdən, pakt regionda bütün kommunikasiyaların açılmasını nəzərdə tutur. Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanla birbaşa quru əlaqəsi təmin edilir və Türkiyə üzərindən Avropaya yeni ticarət qapısı açılır. Ermənistan üçün isə bu, daha böyük iqtisadi inqilab deməkdir. Türkiyə və Azərbaycanla sərhədlərin açılması ilə İrəvan iqtisadi cəhətdən "ada" statusundan qurtulur. ABŞ-ın rəhbərliyi ilə Qərb dövlətləri və beynəlxalq maliyyə qurumları tərəfindən Ermənistana ayrılan yüksək məbləğli "Qafqaz İntibah Fondu" ölkənin infrastrukturunun yenilənməsi, yeni texnologiyaların cəlbi və Rusiyanın iqtisadi asılılığından tamamilə azad olması üçün nəzərdə tutulub.

Bu tarixi sazişin imzalanması ilə Minsk qrupu nəinki fəaliyyətini dayandıracaq, həm də mənəvi və siyasi cəhətdən tamamilə yox olacaq. Onun həmsədrləri olan Rusiya və Fransa isə özlərini Cənubi Qafqazın yeni reallıqlarının kənarında tapdılar. Rusiya üçün bu məsələ Ukrayna cəbhəsindən sonra postsovet məkanında aldığı ən ağır geosiyasi zərbədir. Onun regiondakı hərbi varlığı və vasitəçilik iddiası bütün mənasını itirir. Ermənistanın Qərbə doğru strateji dönüşü isə Moskvanın Cənubi Qafqazdakı sonuncu forpostunu (müşahidə postu) da itirməsi deməkdir.

Fransa üçün "Vaşinqton Paktı" tam fiaskodur. Parisin onilliklər boyunca yürütdüyü ermənipərəst, beynəlxalq hüquqa zidd siyasətinin yalnız münaqişənin uzanmasına xidmət edib. Prezident Trampın sammitə nə Fransa, nə də Avropa İttifaqı nümayəndəsini dəvət etməməsi, Vaşinqtonun artıq köhnə dünyanın təsirsiz və qərəzli oyunçularını ciddiyə almadığını göstərir. Fransa, özünü münaqişənin tərəfi kimi apararaq vasitəçi olmaq şansını çoxdan itirmişdi və indi yeni reallıqları yalnız kənardan seyr etməyə məhkumdur. Parisin diplomatiyası Cənubi Qafqazda iflasa uğradı.

2025-ci il 8 avqust tarixi ABŞ-ın qlobal liderliyini bərpa etdiyi, qətiyyətli və praqmatik diplomatiyanın bürokratik ətalətə qalib gəldiyi gün kimi yadda qalacaq. "Vaşinqton Paktı" Cənubi Qafqaz xalqlarına sülh və rifah gətirməklə yanaşı, həm də dünyaya mühüm mesaj verdi: beynəlxalq hüququn prinsipləri strateji baxış və siyasi iradə mövcud olduqda həll edilə bilər. Minsk qrupu və onu təmsil edən Fransa diplomatiyası isə artıq yalnız beynəlxalq münasibətlərdə uğursuzluğun və itirilmiş fürsətlərin nümunəsi kimi xatırlanacaq.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .-2025.- 10 avqust(№166).- S.9.